SARA CİO

Gecən xeyrə qalsın, Cun

İngiliscədən tərcümə:
Arzu Əliyeva

QANUN NƏŞRİYYATI

SARAH JIO

Goodnight June

Cun Andersona xalası Rubidən əfsanəvi “Bluebird” adlı kitab mağazası miras qalır. Tezliklə Cun kitabların arasında Rubi ilə məşhur yazıçı Marqaret Vayz Braun arasındakı köhnə dostluğun sübutu olan maraqlı məktublar tapır. Mağaza iflasın astanasında olduğundan Cun bu tapıntı vasitəsilə onu xilas etməyə qərar verir. O, kömək üçün “Bluebird”ün yaxınlığında yerləşən kiçik restoranın sahibi Gevinə müraciət edir. Deyəsən, birlikdə onlar bu işin öhdəsindən gələ biləcəklər, amma Cunun çoxlu sirri var və Gevinə etibar etmək o qədər də asan olmur.

Əsər boyu Cun ürəyini açmaqdan çəkinir, çünki etibar etmək onun üçün asan deyil. Gevinə yaxınlaşmaq istəsə də, içində saxladığı bu sirlər aralarındakı münasibətə mane olur. Əsərdəki intriqa da məhz buradan doğur: mağazanın taleyi və onların münasibəti Cunun həmin sirləri açıqlaya bilib-bilməməsindən asılıdır.

Bacım və əziz rəfiqəm Cessika Kempbellə
həsr olunur.

“Hər kəsin axtardığı hər şey, adətən, tapdıqları yerdədir”.

Marqaret Vayz Braun

Müəllifin qeydi

"Gecən xeyrə qalsın, Ay"ı ilk dəfə oxuduğunuzu xatırlayırsınızmı? Bir çoxları bu kitabı uşaqkən kəşf edib (1947-ci ildə ilk dəfə çap olunduğu vaxtdan bəri 14 milyon nüsxədən çox satılıb, dünya miqyasında sonsuz sayda uşağı sevindirib). Mən hədiyyə kimi bu kitabın bir nüsxəsini alanda hekayə ilə qismən tanış idim. İlk dəfə bunu böyük oğlum Karsona oxuduğum zaman o hələ çox kiçik idi. Biz, sözün əsl mənasında, "Kiçik dovşan yatmağa gedir" nağılına heyran olduq. Hər günün sonunda, bu səhifələri oxumağın sakitləşdirici olduğunu kəşf etdim (tezliklə onları əzbərləmişdim). Gecədən-gecəyə, "böyük yaşıl otağa" qayıtmaq çox rahatlıq verirdi.

İki kiçikyaşlı oğullarım da hər gecə nağıl oxuma saatımıza qoşuldu. Hər üçünün öz sevimli səhifəsi var idi və hər biri siçanı axtarırdı. İllər ərzində biz bu hekayəyə mehribanlıqla "Ay kitabı" deməyə başladıq (Kiçik oğlum Kolbi kitab sözünü tələffüz edə bilmir, buna görə də ona "Ay yeməyi" deyirdi). Demək olar ki, "Gecən xeyrə qalsın, Ay" bizim evimizdə olduğu kimi, ürəklərimizdə də əvəzolunmaz olub.

Bir zamanlar "Gecən xeyrə qalsın, Ay"ı parodiya edən gülməli bir məqalə yazmışdım, bu məqalə "Parenting" jur-

nalının veb saytında ən populyar səhifələrdən biri oldu. Aydın olur ki, əsər nəşr olunandan yarım əsr sonra da, "Gecən xeyrə qalsın, Ay" hələ də bizə təsir edir.

Bir kitabı çox bəyənəndə, adətən, müəllifi haqqında daha çox məlumat əldə etməyə çalışıram. Beləliklə, Marqaret Vayz Braunun həyatını araşdırmağa başladım. Mən onu daha çox tanımaq istəyirdim – həyatını çox erkən itirən, 1952-ci ildə 42 yaşında vəfat edən bu həyat eşqi ilə dolu və gözəl uşaq kitabları müəllifini.

Marqaret haqqında oxuya bildiyim hər şeyi oxudum və araşdırmalarımda gördüm ki, bizim çox oxşar cəhətlərimiz var. O mənim kimi narahat və məqsədyönlü idi (bu xüsusiyyətlər bəzən məhsuldar, amma bəzən də dərdli yazıçı olmağa səbəb olur). O mənim kimi xəyalpərəst idi. Göydəki dovşanşəkilli bir bulud, yeni bir kitab üçün ilham verə bilərdi, eyni şəkildə Meyndəki evinə yaxın bir adada gəmiylə səyahət, ona yeni seriya üçün ilham verə bilərdi.

Marqaret çox yaradıcı idi. Onun həyatını oxuduqca, anladım ki, o da mənim kimi, insan təbiətinin qüdrətli güc olduğunu hiss edirdi. Marqaretin hekayələrinin mövzuları hər sahəni əhatə edirdi. Bəzən, səhər oyananda, keçən gecə gördüyü yuxular ona yeni kitablar üçün ideyalar verirdi.

Əgər beyniniz bu şəkildə işləyirsə, həm həyəcanverici, həm də ağlınızdakı qarışıqlıqla nəticələnə bilər (Təsəvvür edin, bir romanın ilk layihəsinin yarısına çatanda, yeni kitabın xarakterləri qulağınıza pıçıldayır – bu mənim həyatım). Mənim yazıçı dostum, həkim olan Kerol Kassella, yarızarafat "xroniki xəstəlik" deyir. Yaxşı və ya pis, fərq etmir, mənim Marqaretlə oxşar xüsusiyyətlərimiz var.

Marqaret sevgi məsələlərində pişik balası kimi həssas olsa da, nəşriyyat sahəsindəki maraqlarına və illüstrator dostlarının maraqlarına da diqqət yetirən, ikinci olmağı sevməyən, ağıllı və fərasətli iş qadını idi.

Mən onun bu xüsusiyyətlərini sevirəm. O həm enerjili və qətiyyətli, həm də zərif ruhlu və sədaqətli dost idi. O həm də impulsiv idi. Marqaret haqqında ən sevdiyim hekayələrdən biri, müəllif hüququna görə aldığı bütün pulu yüzlərlə çiçəyə xərcləməsi ilə bağlıdır. Onun Nyu-York şəhərində küçələrin birində çiçək arabasındakı çiçəklərin hamısını alıb, evini bəzəyib dostları üçün şənlik təşkil etdiyi deyilir.

Marqaret Vayz Braunun dünyada bu qədər böyük təəssürat yaratmasının təəccüblü olmadığını söyləmək olar, amma, eyni zamanda, onun qəfil ölümündən sonra sirlər də yaranmışdı. Heç kim dəqiq bilmir ki, "Gecən xeyrə qalsın, Ay"ın həqiqi ilham mənbəyi nə olub. Marqaretin bu hekayəni bir səhər Nyu-Yorkdakı kottecin həyət evində yazdığı güman edilir. Beləliklə, mən bu məşhur uşaq kitabının ilhamının nə ola biləcəyini təsəvvür etməyə başladım və Marqaret kimi, xəyalımı sərbəst buraxdım.

Tezliklə, mənim xəyalımdakı xarakterlər pıçıldaşmağa başladılar. Bu, Nyu-York Sitidə yüksək riskli işlərdə işləyən, sağlamlığına ziyan vuran 35 yaşlı bankir Cun Andersen və Sietldəki məşhur "Bluebird Books" uşaq kitab mağazasını sevimli bacısı qızına miras qoymuş böyük xalası Rubi idi. Kitab mağazası sirlərlə doludur və Cun burada xalası və Marqaret Vayz Braunun bir-birinə yazdığı, yazıçının həyatına dərin təsir göstərən gözəl məktubları tapır.

Amma mən Marqaretin həyatından və bədii təxəyyülündən ilhamlanan hekayə yazmaq istəsəm də, məqsədim həm də mənim obrazım Cunu mərkəzə yerləşdirmək idi. Axı bu onun yoludur. Həssas olmaq, keşməkeşli keçmişlə üzləşmək, yenidən başlamağa cəhd göstərmək, yenidən sevmək üçün cəsarət lazımdır. Cun bunu edə biləcəyini anlayacaq və kitab mağazası maliyyə çətinliyinə düşdükdə, Rubinin dəyərli "Bluebird Books"unun taleyi Cunun əlində olacaq. O bu yeri və onun sirlərini xilas edə biləcək? Özünü xilas edəcək?

Marqaret Vayz Braun mən doğulmamışdan iyirmi altı il əvvəl bu dünyadan köçüb. Bizim yollarımız heç vaxt kəsişməsə də, çox vaxt düşünürəm ki, onunla görüş necə olardı, bir fincan qəhvə (ya da, bəlkə, Marqaretin bəyəndiyi kimi, nahar kokteyli) içərək yazıçılıq həyatını, pambıq quyruqlu dovşanları, oturacaqlarda oturan üç balaca ayını müzakirə edərdik. Hər şeyi. Mən ona bu romanı yazdığımı deyərdim və ümid edərdim ki, bəyənərdi. Gülərdik və hekayələr danışardıq, mən isə ona dördyaşlı oğlum Rassellin onun "Dənizçi it" kitabına heyran olduğunu izah edərdim. Biz, həmçinin rəqəmsal dövrdə kitab mağazalarının çətinliyini və uşaqların ədəbiyyata olan sevgisini, televiziyalar, videooyunlar dövründə necə qorumağın çətinliyini müzakirə edərdik. Mən onun çiçək arabası səhnəsini tərif edərdim (əgər belə bir şey etmək üçün cəsarətim olsaydı) və ona ilhamverici olduğu üçün təşəkkür edərdim.

Sadəcə deyim ki, onunla bir yerdə olmaq mənim üçün çox gözəl olardı.